**S.M.HÜMBƏTƏLİYEVA**
*filologiya üzrə fəlsəfə doktoru*
*e-mail: sevinchumbtliyeva@gmail.com*
**:https://orcid.org/0009-0000-7215-439X**

**Azərbaycan Dövlət İqtisad Universiteti**
(Bakı şəh., H.Əliyev küç. 92)

**10.62021/0026-0028.2024.4.145**

# KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATINDA MƏHƏMMƏD FÜZULİNİN ƏSƏRLƏRİNİN BƏDİİ-FƏLSƏFİ VƏ MƏNƏVİ İRSİ

***Xülasə.*** *Füzuli 16-cı əsrdə İraqda yaşamış Azərbaycan şairi və mütəfəkkiridir. İraq o zaman Ağqoyunlu, daha sonra isə Səfəvilər dövlətinin və Osmanlı imperiyasının tərkibində olmuşdur. Məhəmməd Süleyman isə onun ədəbi təxəllüsüdür. Füzuli poeziyası ədəbi nöqteyi-nəzərdən Azərbaycan ədəbiyyatına aiddir. Məhəmməd ibn Süleyman və ya Molla Məhəmməd Bağdadi 1494-cü ildə Bağdadın yaxınlığında yerləşən Kərbəlada dünyaya gəlib. Məhəmməd Füzuli Azərbaycanda məşhur olan türk mənşəli Bayat tayfasından-dır. Məhəmmədin atası Süleyman İraqa Ərəş (indiki Ağdaş) mahalından köçmüşdür.*

***Açar sözlər:*** *Məhəmməd Füzuli, qəzəlləri, poemaları, farsca əsərləri, türkcə (Azərbaycanca) şeirləri, ərəb dilində yazdığı əsərlər*

1508-ci ildə I Şah İsmayıl Bağdada girərək İraqı Səfəvi İmperiyasının tərkibinə daxil edir və şəhər uzun müddət Səfəvi İmperiyasının tərkibində qalır. Bu səbəbdən Füzulinin yaradıcılığının ilk dövrləri İraqi-Ərəbin Səfəvilər hakimiyyətinə tabe olduğu dövrlərə rast gəlir.

**Əməkdar incəsənət xadimi Aqil Məlikov:** "Məhəmməd Füzulinin həyat və yaradıcılığı haqqında ilkin məlumat" əsərində yazır: "Füzuli yetəri qədər bilikli bir adam olub. Atası onun təhsil almasına kifayət edəcək qədər varlı adam idi. Füzuli orta əsr elmlərindən sayılan tibb, məntiq, riyaziyyat və bir sıra humanitar elmlər, dini-fəlsəfi cərəyanlar ilə tanış idi. Məhəmməd Füzuli əsərlərini üç dildə – Azərbaycan, ərəb və fars dillərində yazırdı. O Nəsimidən sonra Azərbaycan dilində şeirlər yazan ikinci böyük şair sayılırdı. Şərq poeziyasında Füzuli lirik şair, məhəbbət şairi kimi tanınırdı" [1, s.123].

Füzulinin **fars dilində** yazdığı əsərlər bunlardır:

1) "Həft cam" (Yeddi cam) və ya "Saqinamə" – alleqorik poema

2)"Səhhət və Mərəz" – farsca və nəsrlə yazılmış alleqorik əsər.

3) "Rindü Zahid" – nəsrlə yazılmış iki baxışın dialoqu.

**Türkcə (Azərbaycanca)** yazdığı əsərlər aşağıdakılardır: 1)"Bəngü-Badə" ("Tiryək və Şərab") – poema; 2) "Söhbətül-əsmar" ("Meyvələrin söhbəti") – poema; 3) "Leyli və Məcnun" – poema (alleqoriya olmayan yeganə poeması); 4) "Hədiqətüs-Süəda" ("Xoşbəxtlik bağçası") – şairin həcmcə ən böyük əsəri, ənənəvi-müştərək mövzuda yazılıb; 5) "Şikayətnamə" və ya "Nişançı Paşaya məktub" – nəsr əsəri (Azərbaycan dilində ilk nəsr); 6) "Hədisi Ərbəin"("Qırx hədis") – Əbdürrəhman Caminin eyni adlı əsərindən tərcümə (fars dilindən).

M.Füzulinin məşhur **qəzəlləri** bunlar sayılır: 1) "Məni candan usandırdı"; 2) "Söz"; 3) "Olsaydı məndəki qəm"; 4) "Can vermə qəmi-eşqə ki, eşq afəti-candır"; 5) "Canı kim cananı üçün sevsə cananın sevər"; 6) "Məndə Məcnundan füzun aşiqlik istedadı var"; 7) "Yetər ey fələk"; 8) "Tutuşdu qəm oduna"; 9) "Pənbeyi-daği-cünun içrə nihandır bədənim"; 10) "Ey könül, yarı istə, candan keç"; 11) "Könül səccadəyə basna ayaq, təsbihə əl urma"; 12) "Rəma-

zan oldu çəkib şahidi-mey pərdəyəri"; 13) "Ey bivəfa ki, adət olubdur cəfa sana"; 14) "Aşiq oldum yenə bir tazə güli-rənayə". **Opera:** "Leyli və Məcnun" – bəstəkar Üzeyir Hacıbəyovdur.

**Musiqi poemaları** aşağıdakılardır: 1)"Füzuli" vokal-simfonik poema (1993) – musiqi: Ramiz Mustafayev" 2) "Füzuli" simfonik poema – musiqisi: Arif Məlikovdur. 3) "Şəbi-hicran" lirik poema – xor və böyük simfonik orkestr üçün – musiqisi: Məmməd Quliyevdir.

**Orxan Əhmədov** öz elmi araşdırmasında qeyd edir:

"Füzuli ilk təhsilini Kərbəlada almış, Bağdadda davam etdirmiş, bir müddət İraqın Nəcəf və Hüllə şəhərlərində də yaşamışdır. O, şəxsi mütaliəsi sayəsində orta əsr elmlərini, xüsusilə dini-fəlsəfi cərəyanlar, ərəb tərcümələri əsasında yunan fəlsəfəsi ilə yaxından tanış olmuş, klassik türk, ərəb, fars və hind ədəbiyyatını öyrənmişdir.Azərbaycan-Türk ədəbiyyatı tarixində divan janrının ən möhtəşəm nümayəndələrindən biri kimi tanınmışdır" [2, s.106].

Füzuli "Bəngü-Badə" ("Tiryək və Şərab") əsərini Şah İsmayıl Xətaiyə ithaf etsə də, saraya meyil etməyib. Osmanlı padşahı Sultan Süleymana bir neçə qəsidə təqdim etmişdir. O, qəzəl, qəsidə, müsəddəs, tərkibbənd, tərcibənd, rübai, qitə, mürəbbe və s. janrlardan məharətlə istifadə etmiş və əsərlərini yalnız əruz vəznində deyil, həmçinin həm nəzmdə, həm də nəsrlə, həm lirik, həm də epik növdə yaratmışdır. O, ana dilli bədii nəsrin əsasını qoymuşdur. Füzuli doxsana qədər qəsidə yazmış və və həmin qəsidələrdən ibarət ayrıca divan tərtib etmişdir.

**Aqil Məlikov öz əsərində yazır:** "Müasirlərindən fərqli olaraq, qəsidələrində şahlardan çox Allahı mədh edirdi. Qitələrində isə böyük ictimai-fəlsəfi problemlər qoyaraq öz qənaətini bədii dildə ifadə edirdi. Bu baxımdan türk divanındakı qitələri xüsusilə fərqlənirdi**.** Fəlsəfi mahiyyətli qəsidələri, "Yeddi cam", "Ənisül-qəlb", "Səhhət və Mərəz" əsərləri şairin qocalıq dövrünün məhsullarıdır. O, qəsidələrini ayrıca bir əsər kimi xüsusi toplayaraq, kitab şəklinə salmışdır. Bundan əlavə, türk, fars və ərəb dillərində divanlar tərtib etmişdir [3, s.24-32].

**Nübar Əzimova öz əsərində yazır:** "Şairin yaradıcılığının zirvəsi olan "Leyli və Məcnun" poeması Azərbaycan, eləcə də, Şərq və dünya poeziyasının nadir incilərindən sayılır. Nizami Gəncəvinin ilk dəfə yazılı ədəbiyyata gətirdiyi "Leyli və Məcnun" mövzusuna bir çox türk, fars, hind, özbək və tacik şairləri tərəfindən müraciət olunmasına baxmayaraq, Füzulinin Azərbaycan türkcəsində yaratdığı əsər orijinallığı ilə bu mövzuda əvvəllər yazılmış poemalardan seçilir" [4, s.48-56].

Klassik məsnəvi janrının bütün qayda-qanunları üzrə yazılmış bu əsər Osmanlı hökmdarı Sultan Süleyman Qanuniyə ithaf olunmuşdur. Nizamidən fərqli olaraq, dövrün tələbinə görə Füzulinin "Leyli və Məcnun"u daha çox sufi-ürfani məzmundadır. Əsərdə Nizami poeması ilə səsləşən **şəxsiyyət azadlığı** problemi qoyulmuşdur. Poema Rum zəriflərinin xahişi ilə yazılmışdır. Poemanın motivləri əsasında dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov 1908-ci ildə Şərqin ilk operasını – "Leyli və Məcnun" operasını yazmışdır. "Leyli və Məcnun" adlı bədii film və eyni zamanda poemanın motivləri əsasında "Məhəbbət dastanı" filmi lentə alınmışdır. Həmin filmdə Müslim Maqamayev baş rolda Məcnun obrazını yaratmışdır. Füzuli qədim yunan və Şərq fəlsəfəsi ilə tanış idi. Onun fəlsəfi görüşləri əsasən ərəb dilində nəsrlə yazdığı "Mətləül-etiqad" əsərində əksini tapmışdır. Füzuli burada Aristotel, Platon, Empedokl, Demokrit və başqa yunan filosoflarının fikirlərindən, fəlsəfi irsindən təsirlənmişdir. Füzulinin başqa əsərlərində də ədəbi fəlsəfi fikirlərə təsadüf edilir. Nizami kimi o da öz əsərləri ilə ictimai-siyasi gedişə təsir göstərmək istəmiş, bəzən hakimlərə və məmurlara məsləhətlər etmişdir.

Məhəmməd Füzulinin adı Azərbaycan tarixinə görkəmli şair, mütəfəkkir, tərcüməçi, Azərbaycan ədəbi dilinin yaradıcılarından biri kimi əbədi həkk olmuşdur. O, Nəsimidən sonra ana dilimizdə Azərbaycan şeirinin ən gözəl nümunələrini yaratmışdı. "Bəngü-Badə", "Söhbətül-əsmar", "Həfti-cam", "Leyli və Məcnun" və s. kimi irihəcmli əsərləri, çoxlu qəzəlləri söz sənətinin ölməz abidələridir. O, doğma ədəbiyyatımızı vətəndən çox-çox uzaqlarda şöhrətləndirdi.

Əsərləri hələ o zamanlar İstanbul, Təbriz, Daşkənd və s. kimi böyük şəhərlərdə dəfələrlə çap edilirdi. Şərq poeziyasında Füzuli lirik şair, qəlb şairi, məhəbbət şairi kimi tanınır. Öz hekayələrində o, elmə olan marağını da göstərmişdir.

Füzuli maddi və mənəvi çətinliklər içərisində yaşamışdır. Türk sultanı Sultan Süleyman şairə ayda doqquz axca təqaüd təyin etmişsə də, süründürməçilik üzündən o bunu ala bilməmişdir. Bununla əlaqədar olaraq şair, Sultan Süleymana müraciətlə "Şikayətnamə" əsərini yazır və burada feodal idarə üsulunu tənqid edərək deyir: "Salam verdim, rüşvət deyildir deyə almadılar".

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, ilk dəfə olaraq Məhəmməd Füzulinin nəinki qəzəlləri və poemaları, həmçinin Azərbaycan bəstəkarları tərəfindən onun əsərlərinə yazılmış opera, kantata və bir çox musiqi əsərləri ilə dinləyiciləri tanış etmişdir. Füzuli öz dövrünün istedadlı nümayəndələri ilə tanınan bütöv bir ədəbi məktəb formalaşdırmışdır. Öz müasirlərindən başlayaraq ta sonrakı dövrlərdə də Füzuli ənənələrinin davamçıları çox şairlər olmuşdur. Bunlardan bizim müasirimiz Əliağa Vahid həmin sənətkarlardandır. Bu nəhəng söz ustası onun adını hər zaman öz qəzəllərində ehtiramla yad etmişlər.

Füzuli öz şeirlərində, XVI əsrə qədər Azərbaycan türkcəsində yazan şairlərin bütün yaxşı təcrübələrini hesaba almış, onu böyük cürət və məharətlə inkişaf etdirmişdir. Lirikanın ən qiymətli nümunələrini verməklə Azərbaycan, eləcə də türk ədəbiyyat tarixində yeni, çox böyük və gözəl bir məktəb açmışdır.

**Məqalənin tətbiqi əhəmiyyəti** onunla əlaqədardır ki**,** hal-hazırda ölkəmizdə Məhəmməd Füzulinin 530 illiyi keçirilir və onun əsərlərinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Füzuli ədəbi məktəbi, özünün məna, məzmun zənginliyi, bədii yüksəkliyi ilə insan hiss və fikirlərinin bədii ensiklopediyasını təşkil edir. Bu məktəb şeirimizin bədii keyfiyyətini son dərəcə yüksək bir pilləyə qaldırmaqla qalmamışdır. O, Azərbaycan türkcəsinin bütün gözəlliklərini, imkan və qüdrətini parlaq surətdə nümayiş etdirmişdir. Bu məktəb klassik ədəbiyyatdakı köhnəlmiş qayda və normaları qırmaqda, inkişafa mane olan klassisizm ənənələrinə cəsur, azad və hünərli yanaşmaqda böyük tarixi xidmət göstərmişdir. Füzuli Nəsimidən sonra ana dilimizdə yaranmış şeirin ən gözəl nümunələri olan əsərləri ilə ədəbi-bədii dilimizi yeni yüksəkliklərə qaldırmış, klassik Azərbaycan, habelə digər türk xalqlarının poeziyasına qüvvətli təsir göstərmiş, ədəbi məktəb yaratmışdır. Onun əsərləri Təbrizdə, Bakıda, İstanbulda, Ankarada, Qahirədə, Daşkənddə, Buxarada, Aşqabadda dəfələrlə nəşr edilmiş, dünya şərqşünasları tərəfindən yüksək qiymətləndirilmişdir.

**Nəticə:** Məhəmməd Füzuli qəməri tarixlə 963-cü, miladi təqvimlə 1556-cı ildə Kərbəlada taun xəstəliyindən vəfat etmiş, orada da dəfn olunmuşdur.

1959-cu ildə Füzulinin adı şəhərə və rayona verilmiş, Bakıda abidəsi ucaldılmışdır. Elmlər Akademiyasının Əlyazmalar İnstitutu şairin adını daşıyır. Haqqında 3 sənədli film çəkilmiş, "Füzuli kantatası" (C.Cahangirov), "Füzuli" simfonik poeması (A.Məlikov) və bir çox qəzəllərinə musiqilər, romanslar bəstələnmişdir.

Məhəmməd Füzulinin adı Azərbaycan tarixinə görkəmli şair, mütəfəkkir, tərcüməçi, Azərbaycan ədəbi dilinin yaradıcılarından biri kimi əbədi həkk olmuşdur. O, Nəsimidən sonra ana dilimizdə Azərbaycan şeirinin ən gözəl nümunələrini yaratmışdı. "Bəngü-Badə", "Söhbətül-əsmar", "Həfti-cam", "Leyli və Məcnun" və s. kimi irihəcmli əsərləri, çoxlu qəzəlləri söz sənətinin ölməz abidələridir.

## Ədəbiyyat


1. Aqil, K. Məhəmməd Füzulinin həyat və yaradıcılığı haqqında ilkin məlumat / K.Aqil. – Bakı: Maarif, – 2011. – 123 s.
2. Əhmədov, O. Məhəmməd Füzuli – həyat və yaradıcılığı. İzahlı təhlili. / O.Əhmədov. – Bakı: Elm, – 2024. – 106 s.
3. Məlikov, A. "Dahilərin Divanı" Məhəmməd Füzuli / A.Məlikov. – Bakı: Maarif, – 1987. – 24-32 s.
4. Əzimova, N. "Leyli və Məcnun"poeması M.Füzuli. Son nəşr fərqi ilə elmi təhlil / N.Əzimova. – Bakı: Elm, – 1989. – 48-56 s.
5. "Şikayetname" – Füzuli – "Selam verdim rüşvet değildir diye almadılar". Bağdat'tan, – 54-56 s.

**S.M.Humbataliyeva**

**Artistic-Philosophical and Spiritual Heritage of Muhammada Fizuli in the Classical Literature of Azerbaijan**

***Summary***

Fuzuli is the literary pseudonym of Muhammad ibn Suleiman, a 16th-century poet and thinker from Iraq, then part of the Ak Koyunlu state, and later the Safavid state and the Ottoman Empire. According to the dominant view, Fuzuli's poetry belongs to Azerbaijani lite.

Muhammad ibn Suleiman or Mullah Muhammad Baghdadi was born in Karbala near Baghdad in 1494. Muhammad Fuzuli is from the famous Bayat tribe of Turkic origin in Azerbaijan. Muhammad's father, Suleiman, moved to Iraq from Aresh (now Aghdash) district.

***Key nwords:*** *Muhammad Fizuli, his ghazals, poems, Persian works, Turkish (Azerbaijani) poems, works written in Arabic*

**С.М.Гумбаталиева**

**Художественно-философское и духовное наследие Мухаммада Физули в классической литературе азербайджана**

***Резюме***

Физули́ – литературный псевдоним Мухаммеда ибн Сулеймана, поэта и мыслителя XVI века из Ирака, входившего тогда в состав государства Ак-Коюнлу, а позднее – государства Сефевидов и Османской империи. Согласно доминирующей точке зрения, поэзия Физули относится к азербайджанской литературе.

Мухаммад ибн Сулейман или мулла Мухаммад Багдади родился в Кербеле недалеко от Багдада в 1494 году. Мухаммад Физули происходит из известного племени Баят тюркского происхождения в Азербайджане. Отец Мухаммеда, Сулейман, переехал в Ирак из района Ареш (ныне Агдаш).

***Ключевые слова:*** *Мухаммад Физули, его газели, стихи, персидские произведения, турецкие (азербайджанские) стихи, произведения, написанные на арабском языке*

*Rəyçi: filol.e.d., dos. Y.Süleymanov*

*Redaksiyaya daxil olub: 24.10.2024*